**ODLAR YURDU UNİVERSİTETİ**

**Elmi Şurasının 22 dekabr 2025-ci il tarixli iclasının**

**04 saylı**

**PROTOKOLU**

| | |
|---|---|
| Bakı şəhəri | 22 dekabr 2025-ci il |
| Elmi Şuranın sədri: | prof. Ə.A.Vəliyev |
| Elmi katib: | dos. S.S.Məmmədzadə |
| İştirak etdilər: | Elmi Şuranın 30 üzvü |

**Gündəlikdə duran məsələlər**

| |
|---|
| 1. Payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti barədə müzakirə. |
| 2. OYU strukrurunda dəyişikliyin müzakirəsi və yeni strukturun təsdiqi məsələsi. |
| 3. Odlar Yurdu Universitetinin 30 illik yubileyinə hazırlığın vəziyyəti barədə müzakirə. |
| 4. OYU əməkdaşlarının baş-müəllim statusuna keçirilməsinin müzakirəsi. |
| 5. Odlar Yurdu Universitetində bakalavr, magistr pillələri və MBA proqramı üzrə təhsil alan tələbələrin biliklərinin qiymətləndirilməsi haqqında əsasnamənin müzakirəsi və təsdiqi. |
| 6. 2024-2025-ci il məzunlarla keçirilmiş sorğuların hesabatının müzakirəsi. |
| 7. Universitet üzrə aparılan sorğuların nəticəsinin müzakirəsi. |
| 8. Beynəlxalq münasibətlər və turizm kafedrasının müdiri prof. S.Ə.Vəliyev və kafedranın əməkdaşı S.Y. Əliyeva tərəfindən hazırlanmış “Tarixi və mədəni turizm” adlı dərsliyin müzakirəsi. |

**I. Payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti barədə müzakirə.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdilər:**
İqtisadiyyat və iqtisadi münasibətlər kafedrasının müdiri **prof. E.Məmmədov** çıxış edərək bildirdi ki, bu semestrdə bir sıra fənnlər istisna olmaqla bütün fənnlərin sualları bazaya təqdim edilmişdir. 3 fənnin suallarında isə dəyişiklik edilmişdir, bununla bağlı təqdimat yazılmış və rektorun qırarı ilə sual bazasında müvafiq dəyişikliklər edilmişdir.
Dizayn kafedrasının müdiri **prof. S. Atayev** çıxış edərək məlumat verdi ki, kafedra üzrə 1 fənn istisna olmaqla digər fənnlər yazılı şəkildə keçirilir. Bütün yazılı imtahan sualları tərtib edilib təsdiqlənmişdir. Təklif edərdim ki, yazılı imtahanların keçirilməsinə dair komissiya təşkil edilsin və yazılı imtahanlar komissiyanın nəzarəti ilə keçirilsin.
Psixologiya, pedaqogika və sosial fənlər kafedrasının müdiri **prof. R.Cabbarov** çıxış edərək bildirdi ki, bazada bütün suallar vaxtında yoxlanılıb və 2 fənnin sualları təqdimatla dəyişdirilmişdir.
Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının müdir müavini **M.Quliyev** bildirdi ki, test bazasında həm rus, həm də azərbaycan bölməsi üzrə suallar yoxlanılmış və yeni suallar əlavə edilərək təsdiqlənmişdir. 14 fənndə test sualları tam dəyişdirilmişdir.
Xarici dillər kafedrasının müdiri **dos. S.Abdurəhmanova** çıxış edərək bildirdi ki, təqdimatla 3 fənnimizin sualları tam dəyişdirilmiş, digər suallar isə yenidən tam nəzərdən keçirilmişdir.
Müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**
Payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti qənaətbəxş hesab edilsin.

**II. OYU strukrurunda dəyişikliyin müzakirəsi və yeni strukturun təsdiqi məsələsi.**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
OYU İdarəetmə Şurasının sədri **prof. S.Vəliyev** çıxış edərək bildirdi ki, universitet üzrə bütün otaqların kamera ilə təchiz olunmasından bu yana aparılan

nəzarətlərimizin nəticəsi heç də ürəkaçan deyildir. Bu da, düşünürük ki, kafedra müdirlərinin məsuliyyətsizliyinin nəticəsindən irəli gəlir.

“Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasının dərs keyfiyyəti çox aşağıdır. Bu məqsədlə prof. S.Vəliyev strukturda bəzi dəyişiklik etməyi təklif etdi. “Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasını “Riyaziyyat və informatika” kefedrası və “İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi” kafedrası olaraq 2 yerə bölünməsini təklif etdi. “Riyaziyyat və informatika” kefedrasına müdir prof. B.Bilalovun təyin edilməsini, “İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi” kafedrasına isə əvəzçi müdir olaraq prof. F.Məmmədova həvalə edilməsini təklif etdi.

Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. OYU srtukturunda dəyişiklik edilsin. “Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasını “Riyaziyyat və informatika” kefedrası və “İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi” kafedrası olaraq 2 yerə bölünsün.
2. Prof. B.Bilalov “Riyaziyyat və informatika” kefedrasının müdiri təyin edilsin.
3. “İnformasiya texnologiyaları və informasiya təhlükəsizliyi” kafedrasına əvəzçi müdir Prof. F.Məmmədova, əvəzçi müdirə köməkçi A.Əzimzadəyə həvalə edilsin.

**III. Odlar Yurdu Universitetinin 30 illik yubileyinə hazırlığın vəziyyəti barədə müzakirə.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

OYU İdarəetmə Şurasının sədri **prof. S.Vəliyev** çıxış edərək bildirdi ki, Odlar Yurdu Universitetinə həsr olunmuş kitab və video rolik, təəssüf ki, gecikdiyindən bu il sonuna qədər tədbirimizi çatdıra bilmirik. Bu səbəbdən, 30 illik yubileyin tarixinin yanvar ayının sonlarında müəyyən edilməsini təklif etdi.

Müzakirələrdən sonra qərar verildi.

**Qərar:**

prof. S.Vəliyevin təklifi nəzərə alınsın.

**IV. OYU əməkdaşlarının baş-müəllim statusuna keçirilməsinin müzakirəsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor **prof. F.Məmmədov** çıxış edərək elmi-pedaqoji fəaliyyətlərində kifayət qədər müsbət keyfiyyətli əməkdaşlara baş müəllim statusunun verilməsini təklif etdi. O, bildirdi ki, kafedralardan bununla bağlı təqdimat daxil olmuş və həmin əməkdaşların elmi və pedaqoji fəaliyyətləri və sənədləri tam şəkildə yoxlanılmışdır. Sənədlər qənaətbəxşdir. Bu məqsədlə təqdmatda adları olan əməkdaşlara baş müəllim statusunun verilməsini təklif edirəm.
Müzakirələrdən və səs vermədən sonra qərar qəbul edilir.
**Qərar:**
İqtisadiyyat və iqtisadi münasibətlər kafedrasının müəllimləri Əzimzadə Aslan Cavid oğlu və İbrahimova Nigar Bağban qızına, Dizayn kafedrasının müəllimləri Hacıyeva Nigar Əli qızı, Heydərova Leyla Natiq qızı, İsmayılzadə Fərəh İftixar qızı və Məhərrəmova Nailə Gülağa qızına, Biologiya və ekologiya kafedrasının müəllimi Səfərova Minəvvər Əjdər qızına, Xarici Dillər kafedrasının müəllimi Seidova Emma Rəfail qızına baş müəllimlik statusu verilsin.

**V. Odlar Yurdu Universitetində bakalavr, magistr pillələri və MBA proqramı üzrə təhsil alan tələbələrin biliklərinin qiymətləndirilməsi haqqında əsasnamənin müzakirəsi və təsdiqi.**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Strateji inkişaf və beynəlxalq əlaqələr üzrə prorektor prof. E.Məmmədov çıxış edərək elmi şura üzvlərini Odlar Yurdu Universitetində bakalavr, magistr pillələri və MBA proqramı üzrə təhsil alan tələbələrin biliklərinin qiymətləndirilməsi haqqında əsasnamə ilə tanış edərək müzakirə və təsdiq olunmasını təklif etdi.
Müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**
Odlar Yurdu Universitetində bakalavr, magistr pillələri və MBA proqramı üzrə təhsil alan tələbələrin biliklərinin qiymətləndirilməsi haqqında əsasnamə təsdiq edilsin.
**VI. 2024-2025-ci il məzunlarla keçirilmiş sorğuların hesabatının müzakirəsi**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Məsələ ilə bağlı Strateji inkişaf və karyera departamentinin rəhbəri **A.Əzimzadə** çıxış etdi. O bildirdi ki, hər il universitet daxilində bu sorğu aparılır. Məzunlara diplomlar təqdim edilməmişdən öncə onlar anonim qaydada bu sorğulardan keçirlər. Bu il 417 məzunumuzdan 286 nəfər bu sorğuda iştirak etmiş və sorğunun nəticəsində məlum olmuşdur ki, 31.5 % məzun universiteti bitirdikdən sonra məşğulluqla təmin

olunmuşlar. A.Əzimzadə məzun sorğusu ilə bağlı hesabatla elmi şura üzvlərini tanış etdikdən sonra hesabatın təsdiq edilməsini təklif etdi.
Müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**
Strateji inkişaf və karyera departamentinin rəhbəri A.Əzimzadənin məzunlarla keçirilmiş sorğuların hesabatı təsdiq edilsin.

**VII. Universitet üzrə aparılan sorğuların nəticəsinin müzakirəsi**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Keyfiyyət təminatı və Akkreditasiya işləri departamentinin rəhbəri **N.İbrahimova** çıxış edərək məsələ ilə bağlı hesabat verdi. O, qeyd etdi ki, 2 istiqamətdə sorğu aparılmışdır. Birinci sorğu istiqaməti tələbələrin məmnunluq sorğusu, 309 tələbə ilə oktyabr ayında keçirilmişdir. İkinci sorğu müəllimlərin peşəkar inkişaf sorğusu – müəllimlırin hansı təlim və treninqlərə ehtiyac duymaları ilə bağlı olmuşdur.
Nəticə etibarilə məlum olmuşdur ki, 95 % tələbə universitet seçimindən razıdır, 91 % tələbə sosial mühitdən razıdır, 87 % tələbə isə dərs materialının çatdırılmasından və dərslərin keyfiyyətindən razıdır. Müəllimlərin peşəkar inkişafı ilə bağlı sorğunun nəticəsindən aydın olmuşdur ki, müəllimlər ən çox yeni texnologiyaların inteqrasiyası ilə bağlı təlimlərə ehtiyac duyurlar. Biz artıq bununla bağlı müvafiq tədbirlər görmüşük və həftənin müəyyən günlərində bu mövzuda təlimlər təşkil olunmaqdadır.
Təklif və müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**
Keyfiyyət təminatı və Akkreditasiya işləri departamentinin rəhbəri N.İbrahimovanın sorğularla bağlı hesabatı təsdiq edilsin.

**VIII. Beynəlxalq münasibətlər və turizm kafedrasının müdiri prof. S.Ə.Vəliyev və kafedranın əməkdaşı S.Y. Əliyeva tərəfindən hazırlanmış "Tarixi və mədəni turizm" adlı dərsliyin müzakirəsi.**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**
Məsələ ilə bağlı prof. S.Vəliyev çıxış etdi. O, elmi şuraya təqdim edilən dərslik barədə məlumat verdi. Bildirdi ki, "Tarixi və mədəni turizm" dərsliyi aktual mənbələrə əsaslanır və onun nümunələrlə zəngin olması tədris proresində effektlivliyi artırır. Dərsliyə müvafiq sahə üzrə 3 mütəxəssis müsbət rəy vermişdir.

Bu baxımdan prof. S.Vəliyev dərsliyin çap edilməsini və qrif alınması üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilməsini təklif etdi.

Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

Beynəlxalq münasibətlər və turizm kafedrasının müdiri prof. S.Ə.Vəliyev və kafedranın əməkdaşı S.Y. Əliyeva tərəfindən hazırlanmış "Tarixi və mədəni turizm" adlı dərslik çapa tövsiyə edilsin və qrif alınması üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim edilsin.

Sonda prof. Ə.A.Vəliyev Şura üzvlərinə iştiraklarına görə təşəkkürünü bildirərək iclasın bitdiyini elan etdi.

**Sədr** **prof. Ə.A.Vəliyev**

**Elmi katib** **dos. S.S.Məmmədzadə**